## Aida İmanquliyeva-80

# Görkəmli alim, qayğıkeş ana

Azərbaycan şərqşünaslıq elminin görkəmli nümayəndəsi, respublikamızda bu sahə üzrə ilk elmlər doktoru Aidə Nəsir qızı İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olmuşdur. 1957-ci ildə Bakı şəhəri 132 nömrəli orta məktəbi qızıl medalla bitirən Aidə xanım Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) şəeqşünaslıq fakültəsinin ərəb filalogiyası şöbəsinə qəbul olunmuşdur.

1962-ci ildə Universiteti bitirəndən sonra bu ali təhsil müəssisəsinin yaxın şərq xalqları ədəbiyyat tarixi kafedrasının aspirantı olmuş, həmçinin keçmiş SSRİ EA Asiya xalqları İnsititunun aspiranturasında təhsil almışdır.

. İstedadlı gənc alim Aida İmanquliyeva 1966-cı ilin martında Moskvada namizədlik dissertasiyasını uğurla müdafiə



edib filologiya elmləri namizədi alimlik dərəcəsini aldıqdan sonra elmi fəaliyyətini Azərbaycan EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda davam etdirib. (Hazırda bu elm ocağı Azərbaycan MEA-nın Şərqşünaslıq İnstitutu adlandırılır).

O, əvvəlcə "Ərəb ədəbiyyatı" qrupunda kiçik elmi işçi vəzifəsində çalışıb və 1972-ci ildən etibarən qrupun rəhbəri, 1976-cı ildən isə institutda yenicə yaradılmış "Ərəb filologiyası" şöbəsinin müdiri vəzifələrində işləyib. Aida xanım həmin şöbəyə rəhbərlik etdiyi müddətdə 10 nəfər ərəbşünas namizədlik dissertasiyalarını müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsinə yiyələnib.

Aida xanım yalnız yaradıcılığı ilə deyil, həm də təşkilatçılıq bacarığı, rəhbərlik fəaliyyəti ilə öz həyatının missiyasına - yaşadığı mühit və rejim çərçivəsində Azərbaycan milli özünüdərkinin qorunub saxlanılması, inkişafı idealına sadiq qalıb.

Şərqşünaslıq İnstitutunun elmi, ictimai-siyasi həyatında yaxından iştirak edən Aida İmanquliyeva işgüzar fəaliyyətinə görə 1988-ci ildə institutun elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin olunub, bir il sonra isə uzun illər üzərində işlədiyi doktorluq dissertasiyasını müdafiə edərək filologiya elmləri doktoru adına layiq görülüb.

Beləliklə, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk professor - qadın olan Aida İmanquliyeva vəzifə pillələrində uğurla irəliləməkdə davam edib. O, 1991-ci ilin avqustundan Şərqşünaslıq İnstitutunda direktor vəzifəsini icra etməyə başlayıb və həmin ilin dekabrında isə direktor vəzifəsinə təyin olunub.

Aida xanım İmanquliyeva elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul idi. O, Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatından dərs deyirdi. Elə məhz buna görə də SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının qərarı ilə ona "Xarici Asiya və Afrika xalqları ədəbiyyatı" ixtisası üzrə 1991-ci ilin mart ayında professor elmi rütbəsi verilib.

Aida xanım İmanquliyeva çox zərif, kövrək bir insan, həddindən artıq nəvazişkar və diqqətli bir xanım olub. O, yaxınlarından tez-tez xəbər tutan, onların işi ilə maraqlanan, çətinliklərini həll etməyə çalışan dost olmuşdur.

O, hər şeydən əvvəl öz ailəsini, həyat yoldaşını çox sevən gözəl qadın, qayğıkeş bir ana kimi sevimli qızları Nərgizin və Mehribanın təlim-tərbiyəsi ilə çox ciddi məşğul olmuşdur. Aida xanım elmi-inzibati işlərlə həddindən çox yüklənməsinə baxmayaraq, sevimli nəvələrini də bir an unutmamış, onların qayğısını və nazını çəkmişdir.

Aida İmanquliyeva 1992-ci ilin 19 sentyabrında vəfat etmişdir.

İnsan bu dünyada müvəqqəti bir varlıqdır. Ancaq bu müvəqqəti həyatda insanın qəribə bir qabiliyyəti var ki, onun köməyi ilə özünə ölməzlik qazana bilir. Bu, gözəl əməl, xeyir iş, başqalarına fayda verən yaradıcılıqdır. Aida İmanquliyeva öz qısa ömründə bu şərtlərin hamısını yerinə yetirmiş, ürəklərdə özünə abidə qoymuşdur.

# Fərəhli anlar yaşanıb

***Nəcib əməlləri ilə tanınan, ləyaqətlə yaşayan, həyat təcrübəsi ilə yeni nəsillərə nümunə olan ahıllar, həqiqətən, hörmət və ehtirama layiqdirlər. Hlə çox qədimdən ağsaqqal, ağbirçək xeyir-duasından, onların həyat təcrübəsindən, müdrik kəlamlarından bəhrələnən nəsillər sevgi, mərhəmət hissi ilə əhatə olunublar. Bu gün xalqımız tərəfindən yaşlı adamların məsləhətinə, onların öyüd və nəsihətlərinə böyük hörmət və ehtiramla yanaşılır.***

Oktyabrın 1-də Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qəbələ Rayon Komitəsinin təşkilatçılığı ilə Beynəlxalq Ahıllar Günü qeyd olunub. Tədbirdə rayonun mədəni-maarif ocaqlarında işləyən əmək kollektivlərinin nümayəndələri və vaxtilə bu müəssisələrdə çalışaraq təqaüdə çıxmış mədəniyyət işçilərinin bir qrupu iştirak edib.

Mərasimdə giriş nitqi söyləyən MİHİ rayon komitəsinin sədri Malik Ağayev tədbir iştirakçılarını təbrik edib, onlara can sağlığı, uzun ömür arzulayıb.

Regional mədəniyyət idarəsinin əməkdaşı Nargilə Qafarova çıxışında təqaüddə olan mədəniyyət işçilərinin təcrübəsinə bu gün bu sahədə çalışan gənclərin həmişə ehtiyacı olduğunu bildirib.

Tədbirdə çıxış edən "Qəbələ" qəzetinin redaktoru Varis Yaqubov Beynəlxalq Ahıllar Gününün ölkəmizdə ulu öndər Heydər Əliyevin ahıl insanlara göstərdiyi böyük diqqət və qayğının nəticəsi kimi 1993-cü ildən qeyd olunduğunu bildirib. O, ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə bu gün "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"na uyğun olaraq, onların sosial vəziyyətinin yaxşılaşdırılması, sağlamlıqlarının qorunması istiqamətində davamlı islahatlar həyata keçirildiyini qeyd edib.

Çıxış edən digər tədbir iştirakçıları ahıllara göstərilən dövlət qayğısına görə ölkə başçısına minnətdarlığını bildiriblər.



Sonda rayonda mədəni-maarif işinin təbliği sahəsində uzun müddət səmərəli fəaliyyət göstərən və hazırda təqaüddə olan mədəniyyət işçilərinə Fəxri fərmanlar təqdim olunub.

Həmkarlar təşkilatı tərəfindən təşkil olunmuş bayram süfrəsi ətrafında keçən maraqlı söhbətlər təqaüddə olan mədəniyyət işçilərinə fərəhli anlar yaşadıb.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**

# Birinciliyə yekun vurulub

***Çağırışa qədər və çağırışyaşlı gənclər arasında "Vətənin müdafiəsinə hazıram!" devizi altında keçirilən poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyinə yekun vurulub. Otuz iki komandanın iştirakı ilə keçirilən yarış Mirzəbəyli kənd tam orta məktəbin komandasının qələbəsi ilə başa çatıb. Əmirvan kənd və Qəbələ şəhər 3 nömrəli tam orta məktəblərin komandaları müvafiq olaraq ikinci və üçüncü yerləri tutublar.***



Gənclər və İdman, Təhsil Nazirliklərinin birgə təşkilatçılığı ilə ənənəvi olaraq hər il keçirilən bu yarışlar gənclərin hərbi hazırlığını gücləndirmək, onlarda vətənpərvərlik hissini artırmaq məqsədi daşıyır.

Yarışın açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək, ölkəmizdə idmana göstərilən yüksək dövlət qayğısından danışıb, komandalara uğurlar arzulayıb.

Qəbələ şəhər 3 nömrəli tam orta məktəbin idman meydançasında keçirilən birincilikdə iştirakçılar 100 metr məsafəyə qaçış, turnikdə dartınma və qumbara atma yarışlarında bacarıqlarını sınayıblar.

Qalib komandalar diplomlarla mükafatlandırılıblar.

Birinci yeri tutan Mirzəbəyli kənd tam orta məktəbin komandası, eyni zamanda, respublika çempionatının zona mərhələsində iştirak etmək hüququ əldə edib.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**

# Xeyirxah peşə sahiblərinin bayramı

***Hələ XXVI əsrdən başlayaraq insanlar, şəhərlər və digər yaşayış məntəqələri arasında əlaqə yaratmaq üçün yeni xidmət–poçt xidməti yaradılıb. İlk vaxtlar daha çox sahələri, o cümlədən sərnişin daşımanı da əhatə edən poçt xidməti sürətlə Avropadan digər qitələrə də yayılıb.***

***Dövlətlər arasında poçt xidmətini əlaqələndirmək, onun təhlükəsizliyini təmin etmək məqsədilə 1874-cü ilin oktyabr ayının 9-da İsveçrənin Bern şəhərində keçirilən XIV beynəlxalq poçt konqresində Ümumdünya Poçt İttifaqının yaradılması haqqında dövlətlərarası müqavilə imzalanıb. İyirmidən artıq ölkənin nümayəndəsinin iştirak etdiyi konqresdə Ümumdünya Poçt İttifaqının ümumi prinsiplərini, üzvlərin hüquq və öhdəliklərini müəyyənləşdirən əsas sənəd Ümumdünya Poçt Konvensiyası qəbul edilib.***

Ümumdünya Poçt Konvensiyasının qəbul edildiyi tarix 9 oktyabr dünyanın əksər ölkələrində poçt işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

Azərbaycan respublikası 1993-cü ildən Ümumdünya Poçt İttifaqının üzvüdür.

"Azərpoçt" MMC-nin Qəbələ Poçt Filialının işçiləri oktyabrın 9-da peşə bayramlarını qeyd ediblər. Onlar əvvəlcə ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül-çiçək dəstələri düzmüş, ulu öndərin xatirəsinə ehtiramlarını bildirmişlər.



Poçt filialında davam edən bayram tədbirində filialın rəisi Rauf Kərimov Azərbaycan Poçtunun tarixindən bu günkü fəaliyyətindən danışmışdır. Rauf Kərimov bildirmişdir ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycan poçt xidmətinin dünya standartları səviyyəsinə qaldırılması üçün ölkə Prezidenti İlham Əliyev tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Ölkə poçtu bu gün xidməti ən yüksək səviyyədə qurmaq üçün lazım olan maddi texniki bazaya avadanlıqlara sahibdir. Qəbələ Poçt Filialı da Respublika poçtu ailəsində layiqli yerini tutur. Bu gün poçtun əhaliyə göstərdiyi xidmətlərin sahəsi xeyli genişlənmişdir. Filialın işçiləri üzərlərinə düşən vəzifənin layiqincə yerinə yetirilməsi üçün əzmlə çalışırlar.

Bayram tədbirində çıxış edənlər onlara yaradılan yüksək iş şəraitinə, poçt işçilərinin maddi rifahının daha da yaxşılaşdırılmasına göstərilən qayğı və diqqətə görə ölkə Prezidenti cənab ilham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə rayon icra hakimiyyəti hüquq şöbəsinin müdiri Məmməd İsmayılov poçt işçilərini peşə bayramları münasibətilə təbrik etmişdir.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**